# L. Rostropoviç və Ü. Hacıbəyovun yaradıcılıq əlaqələri

1921-ci ildə Şərqdə ilk dəfə olaraq konservatoriya yaradılır. Bu tədris müəssisəsinin yaradılmasında xanəndələrin əvəzolunmaz xidmətləri olmuşdur. Burada xüsusi olaraq dahi bəstəkanmız, sonralar Azərbaycan Dövlət Konservatoriyasının rektoru vəzifəsində səylə çalışan Ü. Hacıbəyovun adını qeyd etmək lazımdır. Konservatoriyada azərbaycanlı tələbələrin Avropa alətlərində yüksək səviyyəli ifa üslublarını, klassik musiqi ənənələrini tam mənimsəmələri üçün isə görkəmli bəstəkarımız Üzeyir bəy keçmiş SSRİ-nin müxtəlif tədris dövrün ən yaxşı musiqiçilərinin, əsl ziyalı insanların, bəstəkarların, ocaqlarında çalışan istedad musiqiçiləri Azərbaycana, Dövlət Konservatoriyasında işləməyə dəvət edir. Əlbəttə, bu Azərbaycan musiqi mədəniyyətinin inkişafına yönəldilmiş addımlardan biri idi. Bəstəkar daima bu haqda: "Şərq musiqisinin inkişafı, əsl musiqi incəsənəti həddinə çatması o zaman mümkündür ki, bu sahəyə ümumavropa musiqi nəzəriyyəsi tətbiq olunsun. Yalnız bu nəzəriyyəyə əsasən Şəqr musiqisinin ümumi qanun və xüsusiyyətlərini müəyyən etmək olar" deyə qeyd edirdi. İfaçılıq sahəsində inkişafın vacibliyini nəzərə alaraq 1925-ci ildə görkəmli musiqiçi, istedadlı violonçelist, professor Leopold Vitoldoviç Rostropoviç Bakıya dəvət olunur. Kiçik yaşlarından başlayaraq L. Rostropoviç tutduğu musiqiçi yolunda hər zaman uğurla addımlamışdır. 1910-cu ildə konservatoriyanı qızıl medalla bitirən L.Rostropoviçin adı çox nadir olan əlaçılar siyahısına daxil olmuşdur. Artıq xaricdə müvəffəqiyyətlə çıxış edən 18 yaşlı L.Rostropoviç haqqında Fransa, Amerika, İngiltərə mətbuatında olduqca gözəl fikirlər yazılmış, onun üçün xüsusi olaraq "Violonçelist-solist L. Rostropoviç" adlı reklam prospekti yaradılmışdır. Elə bu dövrdə Mendelson adına Berlin muzeyi L. Rostropoviçi 1758-ci ildə C.B.Qyadanini tərəfindən hazırlanan violonçellə mükafatlandırır. Bir sözlə, L. Rostropoviçi musiqi həyatında yeni bir hadisə hesab edirdilər, bu isə 18 yaşlı musiqiçinin parlaq gələcəyindən xəbər verirdi. Bütün bunlara baxmayaraq L. Rostropoviçin yaradıcılıq yolu, musiqiçi həyatı heç də asan keçməmişdir. L. Rostropoviçin müəllimlik fəaliyyətindən danışarkən qeyd olunmalıdır ki, neçə-neçə istedadlı tələbənin uğurla addımlamasında onun böyük xidmətləri olmuşdur. L.Rostropoviçin musiqi fəaliyyətindən danışarkən xüsusi olaraq onun doğma Bakımızda göstərdiyi xidmətləri qeyd etmək lazımdır.

Azərbaycan Dövlət Konservatoriyasına işləməyə dəvət olunan L. Rostropoviç bu illəri həyatının ən maraqlı dövrü hesab etmişdir. Dövlət Konservatoriyasında çalışan, aparıcı yerlərdən birini tutan pedaqoqlardan biri də L. Rostropoviç idi. Qeyd etməliyik ki, L. Rostropoviç ilk dəfə Azərbaycana 1914-cü ildə gəlmişdir. Bu illərdə Bakıda keçirilən konsertlərdə L. Rostropoviç böyük uğurla çıxış edirdi. Belə konsertlərdən biri 1916-cı ildə keçirilən xeyriyyəçilik konserti idi. Bu haqda mətbuatda yazırdılar: "L. Rostropoviç gənc olmasına baxmayaraq musiqi dünyasında ad qazanmışdır. Artıq Bakıda o, ikinci ildir ki, yaşayır və bu müddət ərzində Bakı musiqi cəmiyyətinin rəğbətini qazanmışdır." Bu illərdə artıq L.Rostropoviç bakılılar tərəfindən layiq olduğu münasibəti qazanmışdır.

Bu inam ifaçının yenidən 1925-ci ildə Azərbaycana gəlişinə səbəb oldu. L.Rostropoviçin həyat yoldaşı istedadlı pianoçu S.N.Fedotova da konservatoriyada fortepiano fakültəsində dərs deyirdi. Onlar keçmiş Kolodezni küçəsində (indiki L. və M. Rostropoviçlər küçəsi), 19 nömrəli evdə yaşayırdılar.

Azərbaycan professional musiqisinin aparıcı siması Üzeyir bəylə istedadlı violonçelist Leopold Rostropoviç arasında tezliklə əsl dostluq münasibətləri başladı. Bu yaradıcı insanlar bir-birinə eyni zamanda insani münasibətlərlə bağlı idilər. Azərbaycanda professional violonçel məktəbinin inkişafında böyük rol oynayan L. Rostropoviç Ü. Hacıbəyovun təklifi ilə ilk simli kvartet yaradır. Kvartetin üzvləri Eydlin, M. Tsinberov, V. Adamski və L. Rostropoviç idilər. L. Rostropoviçin məsləhəti ilə Ü. Hacıbəyov kvartet üçün əsərlər yazırdı. Simli kvartet çoxlu sayda konsertlərdə çıxış edirdi. Simli kvartetlə yanaşı L. Rostropoviç solo ifaçı kimi də konsertlərdə iştirak edirdi. Bu haqda danışmağa bizə L. və M. Rostropoviçlərin ev-muzeyində nümayiş olunan konsert afişaları imkan verir. Bu afişalara diqqət yetirərkən L. Rostropoviçin ifaçılıq repertuarının nə dərəcədə zəngin olduğu diqqəti cəlb edir. Məharətli bir ifaçı kimi L.Rostropoviçin repertuarında klassik musiqi nümunələri ilə yanaşı şərq musiqi nümunələrinə də rast gəlinir.

Violonçel konsertlərinin, fortepiano və violonçel üçün pyeslərin, fortepiano əsərlərinin müəllifi, eyni zamanda bacarıqlı pedaqoq olan L. Rostropoviç təbii ki, öz tələbələrinə olduqca güclü olan müsbət təsirini göstərirdi. Onun konservatoriyada çoxsaylı tələbələri arasında Ə.Daşdəmirov, F.Ələkbərov, G.Krupkin, Ə. Kərimov və başqalarının adlarını çəkmək olar. Bu tələbələrdən xüsusi olaraq konservatoriyada bəstəkarlıq fakültəsi ilə paralel L.Rostropoviçin rəhbərliyi altında violonçel sinfində dərs alan A. Zeynallının adını qeyd etmək lazımdır. Bəstəkar, pedaqoq kimi fəaliyyət göstərən L. Rostropoviç eyni zamanda opera teatrının simfonik orkestrində çalırdı.



İstedadlı Azərbaycan bəstəkarları ilə olduqca səmimi münasibətləri olan Leopold Rostropoviç eyni zamanda Ü. Hacıbəyov və onun yaxın silahdaşlarından biri M. Maqomayevə violonçel çalmağı öyrədirdi.

1927-ci il martın 27-də Rostropoviçlər ailəsində əlamətdar hadisə baş verir, belə ki, onların oğlu M. Rostropoviç dünyaya gəlir. Ailə üzvləri kimi Ü. Hacıbəyov və M. Maqomayev də bu hadisəni böyük sevinclə qarşıladılar. Onların keçirdikləri musiqi axşamları, evdə olan musiqi mühiti Mstislavın hələ uşaqlıqdan sevməsinə səbəb olmuşdur.Təsadüfi deyil ki, o, ilk əsəri olan "Polka"nı Bakıda yaşayarkən yaşmışdır. 1931-ci ildə L.Rostropoviç və onun ailəsi Moskvaya köçdülər. Moskva dövründə L.Rostropoviçin yaradıcılıq həyatı o qədər də asan keçmirdi. Bakıda ən yaxın dostu olan Üzeyir bəylə isə Leopold Rostropoviçin dostluq əlaqələri uzun müddət davam edir. Səmimi dostluq əlaqələrini təsdiqləməyə isə onların bir-birinə yazdığı, arxiv sənədləri olan məktublar imkan verir. Belə məktublardan biri 1938-ci il iyun ayının 2-də L. Rostropoviç tərəfindən Üzeyir bəyə yazılmışdır ki, bu məktub Azərbaycanda fəaliyyət göstərən L. və M. Rostropoviçlərin ev-muzeyində qorunub saxlanılır.

Məktubda L. Rostropoviç adi məişət problemləri ilə yanaşı yaradıcılıq planlarından yazır, eyni zamanda Ü. Hacıbəyov yaradıcılığını, istedadını yüksək qiymətləndirir:

"Əziz dostum Üzeyir! Çox təəssüfki, siz və həyat yoldaşınız bizdə olmamış Moskvadan getmisiniz, biz isə Sizi görməyimizə çox şad olardıq. Ümid edirik ki, Moskvaya növbəti gəlişinizdə bizə 3-12-19 nömrəli telefonla xəbər verəcəksiniz və bizdə yığışacağıq. Biz hələ də "Koroğlu"nun heyrətamiz mühiti və gözəl musiqisinin təsiri altındayıq."

Bu məktubu L.Rostropoviç 1938-ci ildə Moskvada keçirilən Azərbaycan mədəniyyəti günləri dekadasında "Koroğlu" operasını dinlədikdən sonra yazmışdır. Məktubda diqqəti cəlb edən sətirlərdən biri də L. Rostropoviçin Azərbaycana həsr etdiyi orkestr üçün yazdığı "SVOBODNIY Azerbaydjan" Azerbaydjan",) süitası haqqında Ü. Hacıbəyova xahişlə müraciət etdiyi sözlərdir. Bu haqda L.Rostropoviçyazır: "Əgər süita bəyənilərsə, o zaman onu daha uğurlu orkestrləşdirməyi Sizdən xahiş edəcəm, əziz dostum."

Çox təəssüf ki, bu süitanın orkestrləşdirilib ifa olunması barədə bizdə heç bir məlumat yoxdur. Əldə olan yeganə məlumat L. və M. Rostropoviçlərin ev-muzeyində nümayiş olunan "Svobodnıy Azerbaydjan" süitasının müəlliftərəfindən yazılmış titul vərəqəsidir.

Bunlarla yanaşı L.Rostropoviç qışda onun yubiley konsertinin keçiriləcəyi barədə məlumat verir və xüsusi olaraq qeyd edir ki, konsertin proqramına Şərq xalqlarının mahnı və rəqsləri daxil edilib və daha bir istəyi haqqında yazır: "Yaxşı olardı ki, proqrama sizin əsərlərinizi daxil edək və sizin əsərləriniz ifa olunsun. Bir daha yadınıza salıram ki, mənim xahişimi unutmayasınız. İstərdim ki, sizin a)türk mahnısı və b)rəqs əsərləriniz ntəndə olsun. Mən əminəm ki, sizin kimi musiqiçi-bəstəkara ancaq ani olaraq ilham dəqiqələri tapmaq lazımdır və hər şey əla almacaq."

L.Rostropoviçin yaradıcılığına, onun ifaçılıq repertuarına nəzər salarkən artıq onun üslubunda Şərq musiqi təsirinin duyulduğunu hiss edirik. Bu isə onun Azərbaycanda yaşaması və istedadlı bəstəkarımız Üzeyir bəylə olduqca sıx yaradıcılıq əlaqələrinin olmasından irəli gəlmişdir. Belə bir əsər haqqında L. Rostropoviç görkəmli rus bəstəkarı A.Qlazunova yazdığı məktubda danışır. Bu əsər L. Rostropoviçin violonçel üçün yazdığı "Oriental" konsertidir ki, burada bəstəkar geniş surətdə Şərq musiqi motivlərindən istifadə etmişdir. Bütün xüsusiyyətlərdən danışarkən belə bir nəticəyə gəlmək olur ki, L.Rostropoviçin professional Azərbaycan violonçel məktəbinin inkişafında, bir çox azərbaycanlı violonçelistlərin yetişməsində əvəzolunmaz xidmətləri olmuşdur. Bugün isə həmyerlimiz maestro M.Rostropoviçin harada olursa- olsun, doğma Bakımızı unutmaması, hər gəlişi ilə onu sevənlərə hədsiz sevinc bəxş etməsi təsadüfi deyil. M. L. Rostropoviç bu haqda deyir: "Mənim atam Azərbaycanı sevirdi, anam da bu ölkəni sevirdi, Azərbaycana məhəbbət mənə irsən keçmişdir." (M.Rostropoviç "Zerkalo" qəzeti. 14.10.2000.)

Əlbəttə, Azərbaycana qəlbən bağlı olan, Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətlər göstərən, onu heç zaman unutmayan əsl istedadlarla biz də fəxr edirik. Çünki dahilərin yaşayıb-yaratdığı, əsl yaradıcı kimi fəaliyyət göstərdiyi azad Azərbaycan torpağında biz də yaşayırıq.

**Ş. HEYDƏROVA,**
**K. KƏRİMOVA**